"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 330.147336.64.-336,74 39.73.35**

**İRADƏ BAĞIROVA**
"Naxçıvan" Universiteti
iradebagirova@yahoo.com

# GÜCLÜ İNVESTİSİYA VƏ BİZNES MÜHİTİNİN AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI PROSESİNDƏ ƏHƏMİYYƏTİ

*Məqalədə faydalı biznes mühitinin və güclü investisiyaların Azərbaycanın iqtisadi inkişafındakı rolu ətraflı təhlil edilmişdir. Burada həmçinin, investisiyaları cəlb etmək üçün makroiqtisadi özülün qoyulması, xarici birbaşa investisiyalar, kiçik və orta müəssisələrin inkişafı, risk amilləri, korrupsiyanın həm investisiyaya, həm də kiçik və orta müəssisələrin inkişafına göstərdiyi mənfi təsir, qanunvericiliyin sabit olması, elektron viza rejiminin tətbiqi və s. məsələlər geniş şəkildə araşdırılmışdır.*

**Açar sözlər:** *Güclü investisiya, biznes mühiti, xarici birbaşa investisiyalar, korrupsiya, risk, elektron idarəetmə.*

Bugünkü qloballaşan dünyada inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda iqtisadi artım və iş yerlərinin yaradılması iki əsas amildən asılıdır:

- xarici birbaşa investisiyalar (XBİ),
- kiçik və orta müəssisələrin (KOM-ların) inkişafından.

Xarici birbaşa investisiyaların (XBİ) cəlb edilməsi və kiçik və orta müəssisələrin (KOM) inkişafı üçün əlverişli biznes mühiti zəruri amildir.

Xarici birbaşa investisiyalar inkişaf etməkdə olan ölkələrdə xarici maliyyələşdirmənin ən böyük mənbəyidir.

Xarici birbaşa investisiyalar əsas kapitalın formalaşmasını sürətləndirə və ödəniş balansının normallaşmasına kömək edə bilər. Hər bir ölkənin investisiya və biznes mühitinin vəziyyəti həmin ölkənin xarici investisiyalar cəlb etmək və eləcə də kiçik və orta müəssisələri inkişaf etdirmək qabiliyyətini müəyyən edən başlıca amildir. Bildiyimiz kimi, transmilli şirkətlər sağlam biznes mühitinə malik, yəni xərclərin və riskin minimum səviyyədə olduğu ölkələrə investisiya yatırmağı üstün tuturlar. Ona görə də, səmərəli investisiya mühiti hər bir ölkənin öz iqtisadi inkişafına təkan vermək strategiyasının zəruri dayağıdır. Öz növbəsində, bu strategiya əməyin daha məhsuldar olması və kasıb insanların daha yüksək gəlir əldə etməsi üçün imkanlar yaradır.

Xarici birbaşa investisiyaların məşğulluğu təmin etmək, məhsuldarlığı artırmaq, ixracı genişləndirmək və dünyanın inkişaf etməkdə olan ölkələrinin uzunmüddətli iqtisadi inkişafına kömək etmək potensialı vardır. İnkişaf etmək-

**Məqalə tarixçəsi:**
Göndərilib: 14.02.2019, qəbul edilib: 27.02.2019

də olan ölkələr xarici investisiyaları həqiqətən də cəlb edir. Belə ki, inkişaf etməkdə olan ölkələr ümumdünya xarici birbaşa investisiyaların (XBİ) axınlarının 42 %-ini özünə cəlb etmişlər. Bildiyimiz kimi, xarici birbaşa investisiyaların artımı ilə iqtisadi inkişaf daim bir-birini müşaət edir.

İnvestisiyaları cəlb etmək üçün makroiqtisadi özülün qoyulması və əlverişli investisiya mühitinin dəstəklənməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycanın son illər ərzində öz iqtisadi göstəricilərini xeyli dərəcədə təkmilləşdirməsi yüksək iqtisadi inkişafdan xəbər verir. Bu nailiyyətdə ona xarici birbaşa investisiyalar kömək etmişdir. İnvestorlar öz investisiyalarının qabaqcadan görülə bilən və məqsədəuyğun gəlir gətirməsinə çalışırlar. Son illərdə "pul qorxaqdır" sözü tez-tez işlənən ifadəyə çevrilib. İnvestorlar əmin olmalıdır ki, investisiya yatırdığı ölkə həm siyasi, həm də iqtisadi sabitliyə malikdir və həmin ölkəyə investisiya yatırımı təhlükəsizdir.

Yaxşı idarəetmə, şəffaflıq, sabitlik və baş verə biləcək hadisələrin öncədən görülməsi iqtisadi inkişafın əvəzedilməz təməl daşlarıdır. Əgər bu başlıca xüsusiyyətlər yoxdursa, iqtisadi inkişafa faydalı təsir göstərən amillər gözlənilən nəticələri verməyəcəkdir. Ölkələrin iqtisadi inkişaf və sağlam cəmiyyət üçün təhlükə yaradan ən dağıdıcı qüvvələrdən biri - korrupsiyadır. Korrupsiya ölkənin yeni investisiyalara doğru getdiyi yolda ən böyük maneədir. Korrupsiya həm xarici birbaşa investisiyaların, həm də kiçik və orta müəssisələrin (KOM) inkişafının qarşısını alan amildir. Çünki, korrupsiya investorların həm pulunu, həm də vaxtını alır. Korrupsiya şübhəsiz ki, investisiya və biznes mühitinin sağlamlığını müəyyən edən əsas göstəricidir və əgər ölkələr xarici birbaşa investisiyaların artımı və kiçik və orta müəssisələrin inkişafı vasitəsilə iqtisadi inkişafı dəstəkləmək istəyirlərsə, bu ölkələrin hökumətləri korrupsiya məsələsini həll etməlidir. Qərbi Avropa iqtisadiyyatları adambaşına düşən ÜDM üzrə ən yüksək, eyni zamanda Korrupsiyanın Mənimsənilməsi İndeksi (KMİ) üzrə ən yaxşı nəticələrə malikdir. Korrupsiyanın ram edilməsi üçün isə müvafiq qanunvericilik aktlarını qəbul edib, onun icrasına ciddi nəzarət edilməlidir, müstəqil anti-korrupsiya agentliyi yaradılmalıdır, kadrların peşəkarlığının və məvaciblərinin artırılması və s. məsələlər öz real həllini tapmalıdır. Bildiyimiz kimi, Azərbaycanda korrupsiya əleyhinə yeni qanun 2005-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Keçən bu illər ərzində bir çox təşkilatlarda Anti-korrupsiya komissiyası tərəfindən korrupsiya faktı aşkarlanmış və lazımi tədbirlər görülmüşdür, bu proses hazırda davam etməkdədir.

Güclü biznes və investisiya mühitini dəstəkləyən şəraitin yaradılmasında əhəmiyyətli məsələlərdən biri də qanunvericiliyin sabit olmasıdır. Çünki, daima dəyişən qanunvericilik investorların öz gəlirlərini planlaşdırmağa mənfi təsir göstərir. Xüsusilə də mühasibat və audit işi, ətraf mühitə təsir və iş qüvvəsinin idarə edilməsi kimi biznes fəaliyyətlərinə dair qaydaların dəyişməsi investorun xərclərini artırır, bu da investoru investisiya yatırmaq fikrindən daşındırır.

İnvestisiyalarla əlaqədar şəffaf və proqnozlaşdırıla bilən tənzimləmə sistemi biznes qurumlarına potensial investisiya imkanlarını daha dəqiq və vaxtında qiymətləndirməyə və beləliklə də, investisiyalardan əldə ediləcək faydanı tezləşdirməyə kömək edir. Elektron idarəetmənin kütləvi və geniş istifadəsi infor-

masiyanın yayım hüdudlarını genişləndirir, gizli fəaliyyətlər ehtimalını azaldır və fəaliyyətlərin təftiş və auditinin həyata keçirilməsində vasitəçilik edir. Müasir dövrdə Azərbaycan da daxil olmaqla dünyanın bütün inkişaf etmiş ölkələrində kommersiya qanunvericiliyinin və əhəmiyyətli qərarların internet səhifələrində nəşr olunması təkcə şəffaflığın inkişafının çox gözəl bir metodu deyil, həmçinin xarici investorlarla dialoq qurulması, iqtisadi məsələlərin müzakirəsi və sürətli informasiya mübadiləsi prosesinə əvəzsiz bir töhfədir.

Dövlətin öz biznes mühitini inkişaf etdirməsi üçün görə biləcəyi ən sadə işlərdən biri sadəcə yaxşı idarəetmədir.

İqtisadiyyatda yaxşı idarəetmə özündə dörd əsas prinsipi birləşdirir:

- hadisələrin qabaqcadan görülə bilməsi;
- şəffaflıq;
- hesabatlılıq;
- iştirak prinsipi.

Sabit siyasi mühit iqtisadi inkişaf, xüsusilə də xarici birbaşa investisiyalar üçün möhkəm zəmin yaradır. Sabit siyasi mühitin olmadığı halda risk qalmaqda davam edir. Risk isə investisiyaların qarşısını kəsir.

Dünya iqtisadiyyatına inteqrasiyanı davam etdirməklə və müxtəlif formalı beynəlxalq, regional və ikitərəfli əməkdaşlıqlarda iştirak etməklə və təhlükəsizlik ideyalarını möhkəmləndirməklə, demokratik islahatları dəstəkləməklə dövlətimiz elektron idarəetməyə daha çox üstünlük verir, eləcə də şəffaflığı ən yüksək səviyyədə saxlamağa çalışır. Qarşılıqlı investisiyaların həcminin artırılması, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin icrasına başlanılması, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə iqtisadi layihələr, gömrük güzəştləri, qarşılıqlı investisiyalar, əmək miqrasiyası və digər sahələr üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Yeni viza rejimi bu istiqamətdə əlavə imkanlar açacaqdır. Qeyd edək ki, ölkəmizdə elektron viza sisteminin qurulması və tətbiq olunması ilə bağlı hüquqi-texniki baza yaradılıb. Elektron viza rejiminin tətbiqi qarşılıqlı sərmayə axını üçün də mühüm əhəmiyyət kəsb edir. Bu sistem Azərbaycanda çalışmaq və investisiya qoymaq istəyən əcnəbi iş adamlarının ölkəyə gəlişini asanlaşdıracaq. Biznes, turizm və başqa sahələrə maraq göstərən xarici ölkə vətəndaşlarının bu müddətdə Azərbaycana böyük həcmdə pul sərf etməsi gözlənilir. Onu da qeyd edək ki, elektron vizanın ən mühüm üstünlüklərindən biri də ölkəyə xarici turist axınını stimullaşdırmaqdır.

## ƏDƏBİYYAT


1. Əhmədov N.H. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı: Elm , 2012, 345 s.
2. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı : Azərbaycan nəşriyyatı, 2005, 752 s.
3. Vəliyev D.Ə. Türkiyənin müstəqil və demokratik iqtisadi quruculuq təcrübəsinin prioritetləri. Bakı: "İpək yolu" nəşriyyatı, 2003, №3, 45-51 s.

4. Mehdiyev Ramiz. "Azərbaycan-2020: Gələcəyəbaxış "İnkişaf konsepsiyası. layihə. Bakı: 2013, 15s.
5. Ахмедов А.И., Мухсинова Л.Х., Азизов Р.Н., Гаджиева С.М. Международная торговля Азербайджанской Республики. Баку: Сада , 2002, 244 с.
6. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
7. www.economy.gov.az - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi

**РЕЗЮМЕ**

**ИРАДА БАГИРОВА**

**РОЛЬ МОЩНОЙ ИНВЕСТИЦИИ И БИЗНЕС СРЕДЫ В ПРОЦЕССЕ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА**

В статье подробно проанализирована полезная роль среды бизнеса и сильной инвестиции в экономическом развитии Азербайджана. Здесь также, закладывается макроэкономическая основа для привлечения инвестиций, прямые иностранные инвестиции,развитие малого и среднего бизнеса, факторов риска, неблагоприятных последствий для коррупции, как инвестиций, так и развития малого и среднего бизнеса, стабильного законодательства, подачи заявок на получение электронных виз и дрцгие вопросы были широко изучены.

**Ключевые слова**: Сильная инвестиция, среда бизнеса, прямые иностранные инвестиции, коррупция, риск, электронное управление.

**SUMMERY**

**IRADA BAGIROVA**

**IMPORTANCE OF STONG INVESTITION AND BUSINESS ENVIRONMENT IN THE ECONOMICAL IMPROVEMENT PROCESS OF AZERBAIJAN**

In this article business benefits and stronq investition of economical progress in Azerbaijanhave been analysed. Here is also a wide range of issues: macroeconomic foundation to attract investment, foreign direct investment, negative impact on small and medium enterprises, statutory legislation, application of electronic visa regima and other issues were investigated.

**Key words**: strong investition, business environment, direct investitions of abrood, corruption, risk, e- management.

*(İqtisad üzrə fəlsəfə doktoru, dosent C.Mahmudov tərəfindən təqdim edilmişdir)*